AVROPA İTTİFAQININ ENERJİ SİYASƏTİNİN FORMALAŞMASI, HÜQUQİ ÇƏRÇİVƏSİ VƏ BAŞLICA MƏQSƏDLƏRİ

Aygün MİRİYEVA*

Xülasə: Göstərilən bütün cəhdlərə baxmayaraq enerji dünya siyasətinin təyinedici amillərindən biri olaraq qalmaqdadır. Dövlətlərin enerji təhlükəsizliyi onların milli təhlükəsizliyinin tərkib hissəsi hesab edilir. Avropa İttifaqının enerji siyasəti dünyanın bir çox ölkələrinin və regionlarının geosiyasi taleyinə təsir göstərdiyi kimi, Türk dünyasının və Cənubi Qafqaza da təsir edir. Məqalədə başlıca məqsəd Avropa İttifaqının enerji siyasətinin formalaşması, hazırki şəraitdə bu siyasətin hüquqi çərçivəsinin tədqiq etməklə başlıca məqsədlərin müəyyənləşdirilməsindən ibarətdir.

Bunun üçün XX əsrin 50-ci illərindən başlayaraq Avropa Birliklərinin, o cümlədən Avropa Polad və Kömür Birliyinin, Avroatomun formalaşmasında enerji amilinin əhəmiyyəti müəyyənləşdirilmiş, 1992-ci ildə Maastrix sazişinin imzalanmasından, bu birliklərin Avropa İttifaqının vahid çətiri altında birləşməsindən sonra baş verən dəyişikliklər izlənilmişdir. Avropa İttifaqının enerji siyasətinin mahiyyətinin aydınlaşması üçün müxtəlif illərdə imzalanmış çoxtərəfli sənədlərinin, direktivlərin və strateji planların məzmunu təhlil edilmiş və müqayisəli təhlillər aparılmışdır.

Açar Sözlər: *Avropa İttifaqı, Enerji, Siyasət, Məqsədlər, Maastrix, Saziş, Səmərəlilik, Şaxələndirmə*

Formulation, Legal Framework and Main Objectives of the Energy Policy of the European Union

Abstract: Despite all efforts, energy remains a decisive factor in global politics. The energy security of states is considered an integral part of their national security. The energy policy of the European Union affects the geopolitical situation of many countries and regions worldwide, including the Turkic world and the South Caucasus. This article aims to explore the formulation of the energy policy of the European Union and determine its main objectives in the current context through examining the legal framework of this policy.

Beginning in the 1950s, the importance of energy as a factor in the formation of European Unions, including the European Coal and Steel Community and Euratom, was established. Changes following the signing of the Maastricht Treaty in 1992, which united these unions under the umbrella of the European Union, were observed. To clarify the nature of the European Union's energy policy, various multilateral documents, directives, and strategic plans signed in different years have been analyzed, and comparative analyses have been conducted.

Key Words: *European Union, Energy, Policy, Objectives, Maastricht, Treaty, Efficiency, Harmonization*

Giriş

XX əsrin 50-ci illərinin əvvəllərindən etibarən formalaşmağa başlayan, 1992-ci ildə Maastrix sazişinin imzalanması ilə vahid Avropa məkanının yaradılması yolunda yeni bir mərhələyə qədəm qoyan Avropa İttifaqı hazırda qitənin 27 ölkəsini (Avstriya, Belçika, Bolqarıstan, Xorvatiya, Kipr Respublikası, Çexiya, Danimarka, Estoniya, Finlandiya, Fransa, Almaniya, Yunanıstan, Macarıstan, İrlandiya, İtaliya, Latviya, Litva, Lüksemburq, Malta, Hollandiya, Polşa, Portuqaliya, Rumıniya, Slovakiya, Sloveniya, İspaniya və İsveç) birləşdirir. Bundan başqa Avropa qitəsində yerləşən bəzi ittifaq üzvü olmayan dövlətlər Aİ-nin yaratdığı birgə əməkdaşlıq platforması da mövcuddur ki, bu Avropa İqtisadi Bölgəsi (AEA) adlanır. Buraya Avropa İttifaqı ölkələrindən başqa, həmçinin İslandiya, Lixtenşteyn və Norveç də daxildir. Bu, onlara Aİ -nin vahid bazarının bir hissəsi olmağa imkan verir. İsveçrə Avropa İttifaqına və ya Avropa İqtisadi Bölgəsinə üzv olmasa da, vahid bazarın bir hissəsidir.

Avropa İttifaqını təşkil edən birliklərin və təşkilatların yaradılması məqsədlərinə diqqət yetirdikdə aydın olur ki, onların formalaşması birbaşa olaraq region ölkələrinin iqtisadi və enerji təhlükəsizlikləri ilə bağlı olmuşdur.

1. Avropa İttifaqının Formalaşmasında Enerjinin Rolu

Məlum olduğu kimi, Avropa İttifaqı XX əsrin 50-ci illərindən etibarən fəaliyyət göstərən 3 təşkilatın – Avropa Polad və Kömür İttifaqının, Avropa İqtisadi Birliyi və Avropa Atom Enerjisi Birliyinin birləşməsi nəticəsində meydana çıxmışdır. 1951-ci il aprel ayının 18-də imzalanan Paris sazişinə əsasən yaradılmış Avropa Polad və Kömür İttifaqının

* Bakı Avrasiya Universiteti, a.miriyeva91@gmail.com.

DOI :10.30546/100981.1.2024.0205

qurulmasında başlıca məqsədlərdən biri həmin dövrdə iqtisadiyyatda (sənayedə və enerji sektorunda) hələ də əhəmiyyətini qoruyub saxlayan kömürün Avropa məkanında sərbəst hərəkətini təmin etmək, kömür ehtiyatı mənbələrinə daha əlverişli şərtlərlə çıxışı təmin etmək olmuşdu. AKPB-nin yaradılmasında iştirak edən 6 dövlət (Almaniya, Belçika, Fransa, İtaliya, Niderland və Lüksemburq) enerjinin hasilatı, daşınması və satışında rəqabət qaydalarına riayət olunmasına nəzarət edəcək qurumun formalaşdırılmasını, Avropanın enerji (daş kömür) bazarlarında qiymət şəffaflığının təmin edilməsini qarşılarına məqsəd qoymuşdular (Treaty establishing the European Coal and Steel Community, 2024).

Avropa İttifaqını formalaşdıran üç sütundan digər biri Avropa Atom Enerjisi Birliyi və ya Avroatom da birbaşa olaraq enerji siyasəti və təhlükəsizliyi ilə bağlı yaradılmış bir qurum idi. Bu beynəlxalq təşkilat 1957-ci il martın 25-də 6 ölkənin – Almaniya, Fransa, Belçika, İtaliya, Lüksemburq və Niderlandın Romada imzaladığı müqavilə nəticəsində yaranmışdır. Onun ilkin məqsədi Avropada nüvə enerjisi istehsalını inkişaf etdirmək, üzv dövlətlərin enerji təchizatı üçün ondan faydalanmaq, istehsal olunan enerjini üzv olmayan dövlətlərə də satmaqla gəlirlər əldə etmək idi. Əgər Avropa İqtisadi Birliyinin təşəbbüskarı və əsas aparıcı qüvvəsi rolunda Almaniya çıxış edirdisə, Avroatomda belə bir rol Fransaya məxsus idi. Amerikan siyasətşünası Harold Nieburq yazırdı ki, Fransa ikinci dünya müharibəsi dövründə zəifləmiş nüfuzunu bərpa etməyə, ABŞ və Böyük Britaniyandan asılı olmadan nüvə enerjisi və silahı istehsalını inkişaf etdirməyə çalışırdı (Nieburg, 1963: 597-622). Bu isə kifayət qədər böyük xərc tələb edirdi. Müharibədən çıxmış Fransa üçün bu xərcləri təkbaşına təmin etmək kifayət qədər çətin idi. Belə olan halda Fransa nüvənin zənginləşdirilməsi, Avropanın nüvə infrastrukturunun formalaşdırılması xərclərini Polad və Kömür Birliyində iştirak edən üzvlər arasında bölüşdürməklə öz məqsədlərinə çatmağa çalışırdı.

Nüvə gücünü artıran qitə Avropasını həm ABŞ-Böyük Britaniya cütlüyü, həm də SSRİ təhlükə olaraq görürdü. Sovet İttifaqı əsasən ondan ehtiyatlanırdı ki, ABŞ-Avropanın kapitalist dünyası hər zaman birləşə və gücünü sosialist sistemli ölkələrə qarşı yönəldə bilər. Bəhanə olaraq isə irəli sürülən əsas müddəa ondan ibarət idi ki, belə bir təşkilatın yaradılması Qərbi Almaniyaya nüvə silahı istehsal etməyə imkan verə bilər. Birinci və ikinci dünya müharibələrinin səbəbkarı olan almanlar isə yenə dünya ağalığı iddiasına düşərlər. ABŞ və Böyük Britaniya isə Avroatomun fəaliyyətini məhdudlaşdırmaq, dəyərini azaltmaq üçün konkret addımlar atdılar. Belə addımlardan biri 1958-ci ilin fevralında Avropa Nüvə Enerjisi Agentliyinin yaradılması oldu. Həmin agentliyə tədricən Avropadan kənarda olan ölkələr də qoşulduğu üçün 1972-ci ildə o, İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatının (OECD) Nüvə Enerjisi Agentliyi adlandırıldı (History of NEA, 2024). Manea olmaq üçün göstərilən bütün cəhdlərə baxmayaraq Avroatomun yaradılması ilə bağlı imzalanmış saziş 1 yanvar 1958-ci ildə qüvvəyə mindi (Fischer, 1997: 61). Avroatom Avropa ölkələrində nüvə enerjisi istehsalı ilə bağlı proseslərin tənzimlənməsində böyük rol oynadı. Məhz bunun nəticəsi idi ki, Maastrix sazişinin imzalanmasından sonra Avroatom nəinki fərqli hüquqi şəxs statusunu qoruyub saxlaya bilmiş, həm də daha geniş əməkdaşlıq platformasına çevrilmişdir. Belə ki, neytral dövlət olan İsveçrə 2013-cü ildən etibarən Avroatomun proqramlarında iştirakla bağlı Avropa İttifaqı ilə danışıqlara başlamış, 2014-cü ildən etibarən bir sıra proqramlara qoşulmuşdur (Councıl decısıon of 4 December 2014 approving the conclusion by the European Commission, on behalf of the European Atomic Energy Community, of the Agreement for scientific and technological cooperation between the European Union and European Atomic Energy Community and the Swiss Confederation associating the Swiss Confederation to Horizon 2020 — the Framework Programme for Research and Innovation and the Research and Training Programme of the European Atomic Energy Community complementing Horizon 2020, and regulating the Swiss Confederation's participation in the ITER activities carried out by Fusion for Energy: [Digital resource] / Official Journal of the European Union, 2014).

Brexit prosesinə və Böyük Britaniyanın Avropa İttifaqını tərk etməsinə baxmayaraq, 2021-ci ilin yanvar ayından etibarən Birləşmiş Krallıq Avropa İttifaqı ilə Ticarət və Əməkdaşlıq Sazişi çərçivəsində əlaqəli dövlət kimi Avroatom proqramlarında iştirak etməkdədir. Bu heç də təsadüfi deyil. "Financial Times" qəzeti hələ 2017-ci ildə yazırdı ki, Böyük Britaniyanın nüvə sənayesinin yüksək vəzifəli şəxsləri Avroatomdan çıxmanın və onunla əlaqəni tamamilə kəsmənin Birləşmiş Krallıq üçün bir çox istiqamətdə ciddi problemlər yarada biləcəyini etiraf edirlər (Barker, Beesley and Ward, 2017).

Bunan əlavə Avroatomla müxtəlif ölkələr arasında bir sıra əməkdaşlıq sazişləri var ki, həmin ölkələrdən biri Cənubi Qafqazda yerləşən Ermənistandır. Ermənistan, Aİ və Avropa Atom Enerjisi Birliyi arasında nüvə enerjisi sahəsində əməkdaşlığı da nəzərdə tutan Hərtərəfli və Genişləndirilmiş Tərəfdaşlıq Sazişi (CEPA) 2017-ci il noyabrın 24-də Brüsseldə Şərq Tərəfdaşlığı Proqramının beşinci sammitində imzalanmışdır. Bir müddət sonra Ermənistan və Estoniya başda olmaqla Avropa İttifaqı ölkələrinin parlamentlərində saziş ratifikasiya edilmişdir (Licina, 2018: 32).

Bundan əlavə Avroatomla Özbəkistan (Agreement for cooperation in the peaceful uses of nuclear energy between the European Atomic Energy Community (Euratom) and the Government of the Republic of Uzbekistan, 2003: 9-17) və Qazaxıstan (Agreement for co-operation in the peaceful uses of nuclear energy between the European Atomic Energy Community and the Government of the Republic of Kazakhstan, 2009) arasında da əməkdaşlıq sazişləri vardır. Özbəkistanla saziş 2003-cü ildə, Qazaxıstanla saziş isə 2009-cu ildə, imzalanmışdır. Həmən sazişlərin bir çox müddəalarının həyata keçirilməsi üçün isə Cənubi Qafqaz regionu mühüm əhəmiyyətə malikdir.

Təhlillərdən də aydın olduğu kimi, hazırda dünyanın əsas güc mərkəzlərindən biri olan Avropa İttifaqının formalaşmasında məhz enerji sahəsində əməkdaşlıq məsələsi çox əhəmiyyətli rol oynamışdır. Lakin onu da vurğulamaq lazımdır ki, 1958-ci ildə imzalanmış Roma Müqaviləsində Avropada vahid enerji bazarının yaradılması nəzərdə tutulmasına baxmayaraq XX əsrin 80-ci illərinə qədər ittifaq ölkələri arasında enerji bazarlarının inteqrasiyası prosesi elə də sürətli şəkildə getməmişdir. Bununla belə qeyd edilməlidir ki, 1973-cü il neft böhranından sonra Avropa liderləri enerji çatışmazlığı ilə birgə mübarizə aparmaq üçün daha koordinasiyalı yanaşmanın inkişaf etdirilməsinin zəruriliyi qənaətinə gəldilər (History of the EU Energy Union, 2024).

2. Avropada Vahid Enerji Məkanının Yaradılması Siyasəti

XX əsrin 80-ci illərinin sonlarında Avropa Komissiyası Avropada enerji bazarının inteqrasiyası üçün bir sıra təkliflər (direktivlər) irəli sürmüşdü. Lakin 1987-ci ildə qüvvəyə minmiş Vahid Avropa Aktı inteqrasiyanı dərinləşdirmək və transsərhəd enerji ticarəti qarşısındakı maneələri aradan qaldırmaq üçün ilk ciddi cəhd olmuşdur. Bununla yanaşı 17 fevral 1986-cı ildə Lüksemburqda və 28 fevral 1986-cı ildə Haaqada imzalanmış Vahid Avropa Aktında o da göstərilirdi ki, İttifaqın ətraf mühit sahəsində fəaliyyəti enerji resurslarının istismarı ilə bağlı üzv ölkələrin milli siyasətlərini məhdudlaşdıra və ona müdaxilə edə bilməz (Single European Act, 1987: 25). XX əsrin 80-ci illərində əsas ideyalardan biri ittifaq üzvü olan bir ölkədəki istehlakçıların elektrik enerjisini ittifaq üzvü olan digər ölkədən ala bilməsinə şərait yaradılması ilə bağlı idi. Lakin bu ideya strateji bir sahəni liberallaşdırdığı üçün bir çox üzv ölkələr tərəfindən etirazla qarşılandı.

XX əsrin 90-cı illərinin sonlarından etibarən Avropa İttifaqı üzv dövlətləri arasında enerji sahəsində əməkdaşlıq genişlənməyə başladı. Qarşıda duran əsas məsələlərdən biri enerji mənbələrinin şaxələndirilməsi idi. Enerji mənbələrinin şaxələndirilməsi dedikdə iki cür şaxələndirmə nəzərdə tutulmalıdır. Bir tərəfdən Avropa ölkələri enerji əldə olunan resursların özünün şaxələndirilməsini nəzərdə tuturdular. Uzun əsrlər boyunca daş kömür, sonrakı dövrdə isə neftdən əsas enerji mənbəyi kimi istifadə edən Avropa ölkələri enerji istehlakında təbii

qazın, alternativ və bərpa olunan enerji mənbələrindən əldə olunan enerjinin payını artırmağa çalışırdılar. Enerji mənbələrinin ikinci tip şaxələndirilməsi isə Avropa ölkələrinin enerji idxal etdiyi ölkələrin və regionlarının çeşidliliyini nəzərdə tuturdu.

Karbohidrogen resurslarından istifadənin azaldılmasına göstərilən cəhdlər, enerji istehlakında bərpa olunan enerji resurslarının payının artırılması həm də XX əsrin 90-cı illərində aktuallaşn ətraf mühit məsələləri ilə bağlı idi. 1997-ci ildə imzalanmış Kioto Protokoluna əsasən Avropa İttifaqı atmosferə buraxılan istixana qazları emissiyalarının 2012-ci ilə qədər 1990-cı illə müqayisədə 8 faiz azaltmağı öhdəsinə götürmüşdü.

Həmin illərdə Avropada transsərhəd enerji ticarəti üçün əsas maneə istehsal və ötürmə üçün milli bazarların inhisarçı quruluşu idi və bu üçüncü tərəflərin şəbəkəyə çıxışına mane olurdu. Bunun aradan qaldırılması üçün 1996 və 2003-cü illərdə Aİ elektrik enerjisi bazarında rəqabətin artırılmasına və elektrik enerjisi təchizatçıları arasında azad seçimin təmin edilməsinə yönəlmiş ilk elektrik enerjisi direktivlərini qəbul etmişdir. Qazla bağlı oxşar direktivlər 1998 və 2003-cü illərdə verilmişdi (History of the EU Energy Union, 2024).

XXI əsrin əvvəllərindən etibarən iqlim təhdidləri Avropa İttifaqının enerji siyasətinə getdikcə daha çox təsir göstərən amilə çevrilmişdir.2007-ci ildə Avropa Şurası Dövlət Başçılarının Bahar Sammitində 2007-2009-cu illər üçün Avropa İttifaqı Enerji Fəaliyyət Planı qəbul edilmişdi. Bu plan enerji səmərəliliyinin gücləndirilməsini, bərpa olunan enerjidən istifadənin artırılmasını, qaz və elektrik enerjisi üçün Avropa daxili bazarının tam formalaşdırılmasını nəzərdə tuturdu (The Lisbon Treaty and Sustainable Energy, 2010).

2007-ci ildə razılaşdırılmış enerji və iqlim paketində 2020-ci il üçün məcburi dayanıqlı enerji hədəfləri müəyyən edilmişdi. Bunlar istixana qazı emissiyalarının 20 faiz azaldılması, son enerji istehlakında bərpa olunan mənbələrin payının 20 faiz artırılması və enerji səmərəliliyinin 20 faiz yaxşılaşdırılması kimi hədəflər idi.

2009-cu ildə Avropa İttifaqının enerji sahəsində ən əhəmiyyətli sənədlərindən biri olan Lissabon Müqaviləsi imzalanmışdı. Bu sənəddə enerji ilə bağlı ayrıca bölmə var idi. Həmin bölmədə Avropa İttifaqında ortaq enerji bazarının fəaliyyətini təmin edilməsi, üzv ölkələrin enerji təchizatının təhlükəsizliyinin təmin edilməsi ilə bağlı bir çox məsələlər əksini tapmışdı. Burada həmçinin enerji səmərəliliyinin artırılması, enerjiyə qənaət, enerjinin yeni və bərpa olunan formalarının inkişafının təşviq edilməsi məsələlərindən də bəhs olunurdu (The Lisbon Treaty and Sustainable Energy, 2010).

2014-cü ildə Avropa İttifaqı 2030-cu ilə qədər enerji və iqlim çərçivəsini qəbul etmişdir. Bu çərçivədə istixana qazlarının ən azı 40 faizə qədər azaldılması, enerji sektorunda bərpa olunan mənbələrin payının ən azı 27 faizə çatdırılması və enerji səmərəliliyinin ən azı 27 faiz yaxşılaşdırılması nəzərdə tutulur (History of the EU Energy Union, 2024).

3. Müasir Mərhələdə Aİ-nin Enerji Siyasətinin Hüquqi Çərçivəsi

Hazırda Avropa İttifaqının enerji siyasətinin konseptual əsası Avropa İttifaqının Fəaliyyəti haqqında Müqavilənin (TFEU) 194-cü maddəsi ilə müəyyən edilir. Həmin maddədə yazılır ki, Avropa İttifaqının enerji siyasətinin əsasını üzv dövlətlərin enerji təchizatı təhlükəsizliyini təmin etmək təşkil edir. Bunun üçün enerji səmərəliliyi, enerjiyə qənaət və enerjinin yeni və bərpa olunan formalarının inkişafını təşviq etmək əsas mexanizmlər hesab edilir (Consolidated versions of the Treaty on European Union and the Treaty on the Functioning of the European Union, 2016).

Avropa İttifaqının mövcud enerji siyasəti isə 2015-ci ilin fevralında dərc edilmiş Enerji İttifaqı strategiyasına əsaslanır və həmin sənəd Aİ üzvü olan ölkələrdə təhlükəsiz, dayanıqlı, rəqabətədavamlı və sərfəli enerji təchizatını təmin etmək üçün enerji birliyinin qurulmasını hədəfləyir. Həmin strategiyada yazılırdı ki, Avropa İttifaqı lazım olan enerji resurslarının 53 faizini idxal edir ki, bu da 400 milyard avro dəyərində enerji resursları

deməkdir (A Framework Strategy for a Resilient Energy Union with a Forward-Looking Climate Change Policy, 2015). Türk tədqiqatçısı Ufuk Cerrahın tədqiqatlarından aydın olur ki, həmin dövrdə Avropa İttifaqının iqtisadiyyatı üçün lazım olan enerjinin 40 faizi neft, 25 faizi təbii qaz, 17 faizi kömür, 12 faizi nüvə, 4 faizi su elektrik stansiyaları, 0,2 faizi isə digər enerji mənbələri hesabına təchiz edilirdi (Cerrah, 2015: 165).

Strategiyanın hazırlandığı dövrdə başlıca narahatlıq doğuran məqam kimi vurğulanırdı ki, ittifaq üzvü olan altı dövlət istehlak etdiyi qazın hamısını bir xarici təchizatçı hesabına təmin edir (A Framework Strategy for a Resilient Energy Union with a Forward-Looking Climate Change Policy, 2015). Nəzərdə tutulan xarici təchizatçı Rusiya Federasiyası idi. Xüsusən 2014-cü ildə Rusiyanın Ukraynaya məxsus olan Krımın ərazisini işğal etməsindən, Avropa İttifaqı ən aparıcı üzvlərinin belə Rusiya ilə enerji sahəsində əməkdaşlığı səbəbindən bu məsələyə lazımi reaksiya verə bilməməsindən sonra ittifaq üçün bu məsələ prioritetə çevrilmişdi. Həmin dövlətlərin məsələyə sərt reaksiya verməsi Rusiyanın təbii qaz təminatında problemlər yaratmasına gətirib çıxarar və bu Aİ iqtisadiyyatı üçün şok effekti verərdi.

Avropa İttifaqında hesab edirdilər ki, qaz idxalının azaldılması üçün enerjiyə qənaət mexanizmlərini genişləndirmək və təşviq etmək də zəruridir. Aparılan təhlillərdən sonra aydın olmuşdu ki, enerjiyə qənaətdə hər əlavə 1% artım İttifaq ölkələrinə qaz idxalını 2,6% azalda bilər (Csegodi, Naar, 2017: 111).

Xam neft və neft məhsulları ilə təchizat sahəsində də Avropa İttifaqının xarici təchizatdan asılılığı kifayət qədər böyük idi. İttifaq ölkələrində nəqliyyatın 94 faizi neft məhsulları ilə hərəkət edirdi ki, həmin məhsulların da 90 faizi idxal olunurdu.

Bütün bunlar Avropa İttifaqının enerji xərclərini artırırdı. Həmin dövrdə kollektiv olaraq, Avropa İttifaqı enerji subsidiyalarına birbaşa və ya dolayı yolla ildə 120 milyard avrodan çox xərcləyirdi (A Framework Strategy for a Resilient Energy Union with a Forward-Looking Climate Change Policy, 2015).

Bu cür vəziyyət Avropa İttifaqını təkcə ənənəvi enerji resurslarının əsas ixracatçısı olan Rusiyadan asılı salmırdı. Aİ enerji bahalılığına görə özünün hərbi və siyasi cəhətdən müttəfiqi, iqtisadi və maliyyə cəhətdən isə rəqibi olan ABŞ-dan mənfi mənada fərqlənirdi. İttifaq ölkələrində elektrik enerjisinin topdansatış qiymətləri ABŞ-dan 30%, təbii qazın topdansatış qiymətləri isə iki dəfə yüksək idi. Bu cür ciddi fərqlər Avropa İttifaqı ölkələrinin enerji tutumlu sənaye sahəsində ABŞ-a uduzmasına səbəb olur, onların rəqabət qabiliyyətinə ciddi şəkildə mənfi təsir göstərirdi (A Framework Strategy for a Resilient Energy Union with a Forward-Looking Climate Change Policy, 2015).

Bütün bu çətinlikləri aradan qaldırmaq üçün Aİ Enerji strategiyasında bir sıra hədəflər müəyyənləşdirdi. Belə hədəflərdən birincisi, 2030-cu ilə qədər üzv ölkələrin enerji istehlakında bərpa olunan mənbələrdən əldə edilmiş enerjinin miqdarını 42,5 faizə çatdırmaqdır. Bununla yanaşı hesab edilir ki, dayanıqlı enerji təchizatı üçün son enerji istehlakının da 11,7 faizə qədər azaldılması zəruridir [1]. Bu həm də ənənəvi enerji resurslarından, o cümlədən neftdən və qazdan asılılığın azalması demək olardı. Enerji sahəsində yürüdülən siyasətin hədəflərindən digər biri isə 2030-cu ilə qədər İttifaq ölkələrinin elektrik sistemlərinin ən az 15 faizinin qarşılıqlı əlaqələsini təmin etməkdən ibarətdir.

Mövcud enerji çərçivəsinə əsasən, Aİ-yə üzv dövlətlərdən 2021-2030-cu illər üçün 10 illik inteqrasiya olunmuş milli enerji və iqlim planları yaratmaları tələb olunur. Onlar həmçinin iki ildən bir tərəqqi hesabatları təqdim etməli və razılaşdırılmış enerji hədəflərinə və Paris Sazişinin məqsədlərinə nail olmaq üçün ardıcıl milli uzunmüddətli strategiyalar hazırlamalıdırlar.

[1] Energy policy: general principles: [Digital resource] / European parliament, 2024. URL: https://www.europarl.europa.eu/ftu/pdf/en/FTU_2.4.7.pdf

Nəticə

Aİ-nin enerji siyasətinin formalaşması prosesinin təhlili və hüquqi çərçivənin öyrənilməsi onun enerji sahəsində ümumi siyasət məqsədlərini təsnif etməyə imkan verir. Aydın olur ki, hazırki şəraitdə Aİ-nin enerji siyasətinin başlıca məqsədləri enerji mənbələrinin şaxələndirilməsi, tam inteqrasiya olunmuş daxili enerji bazarının yaradılması, enerji səmərəliliyinin artırılması, iqtisadiyyatın karbonsuzlaşdırılması, aşağı karbonlu və təmiz enerji texnologiyaları üzrə tədqiqatların təşviq edilməsi və s.-dir.

ƏDƏBİYYAT

A Framework Strategy for a Resilient Energy Union with a Forward-Looking Climate Change Policy: Eur-lex - An official website of the European Union, 2015, https://eur-lex.europa.eu/legal-content/EN/TXT/HTML/?uri=CELEX:52015DC0080

Agreement for cooperation in the peaceful uses of nuclear energy between the European Atomic Energy Community (Euratom) and the Government of the Republic of Uzbekistan // Official Journal of the European Union, 2003. L269, pp. 9-17.

Agreement for co-operation in the peaceful uses of nuclear energy between the European Atomic Energy Community and the Government of the Republic of Kazakhstan :[Digital resource] / Euro-Lex, 2009. https://eur-lex.europa.eu/LexUriServ/LexUriServ.do?uri=OJ:L:2009:010:0016:0021:EN:PDF

Barker, A., Beesley, A., Ward, A. (2017). UK confirms it will leave European atomic energy community: [Digital resource] / *Financial Times*, - January 26, 2017. URL: www.ft.com/content/fe3b50a4-e3e1-11e6-8405-9e5580d6e5fb

Cerrah, U. (2015). "Enerji güvenliği ve Avrupa Birliği". *Enerji diplomasisi* /H.Çomak, C.Sancaktar, Z.Yıldırım. ss. 163-192. İstanbul: Beta Yayınları.

Consolidated versions of the Treaty on European Union and the Treaty on the Functioning of the European Union: [Digital resource] / Eur-lex - An official website of the European Union, –07 June, 2016. URL: https://eur-lex.europa.eu/legal-content/EN/TXT/?uri=celex%3A12016ME%2FTXT

Council decision of 4 December 2014 approving the conclusion by the European Commission, on behalf of the European Atomic Energy Community, of the Agreement for scientific and technological cooperation between the European Union and European Atomic Energy Community and the Swiss Confederation associating the Swiss Confederation to Horizon 2020 - the Framework Programme for Research and Innovation and the Research and Training Programme of the European Atomic Energy Community complementing Horizon 2020 and regulating the Swiss Confederation's participation in the ITER activities carried out by Fusion for Energy: Official Journal of the European Union, December 30, 2014, https://eur-lex.europa.eu/legal-content/EN/TXT/HTML/?uri=CELEX:32014D0954#d1e113-19-1

Csegődi, T.L., Naár, T. (2017). "Some current issues of energy efficiency in the European Union // Vadyba". *Journal of Management*, 31(2): 111–116.

Energy policy: general principles: [Digital resource] / European parliament, 2024. URL: https://www.europarl.europa.eu/ftu/pdf/en/FTU_2.4.7.pdf

Fischer, D. (1997). *History of the International Atomic Energy Agency. The First Forty Years* / D.Fischer. Vienna: The Agency, 550 p.

History of the EU Energy Union: [Digital resource] / Energy transition, -2024. URL: https://wiki.energytransition.org/wiki/the-eu-energy-transition/history-of-the-eu-energy-union/

Licínia, S. (2018). "Nuclear Security in the EU's vicinity: Challenges of the Metsamor Nuclear Power Plant". *Caucasus International*, 8(1): 29-39.

Nieburg, H.L. (1963). “Euratom: A Study in Coalition Politics”. *World Politics*, 15(4): 597-622.

Single European Act // Official Journal of the European Communities, 1987. L169, p. 1-29.

The Lisbon Treaty and Sustainable Energy: [Digital resource] / İnforseEU, -December, 2010. URL: https://www.inforse.org/europe/eu_table_lisbon.htm

Treaty establishing the European Coal and Steel Community, ECSC Treaty: [Digital resource] / Eur-lex - An official website of the European Union, – April 09, 2024, https://eur-lex.europa.eu/legal-content/EN/TXT/HTML/?uri=LEGISSUM:xy0022